# MÜNDƏRİCAT

Birinci fəsil. ZAVOD DİVARLARI........................................................7
İkinci fəsil. SABAH MÜHARİBƏ OLSA... ..........................................20
Üçüncü fəsil. PRUT ÇAYINDAN DNESTR ÇAYINA QƏDƏR.....33
Dördüncü fəsil. ODLU SƏRHƏDLƏR..................................................53
Beşinci fəsil. TATARKA KƏNDİ YAXINLIĞINDA DÖYÜŞ ...........87
Altıncı fəsil. DƏNİZİN O TAYINDA....................................................102
Yeddinci fəsil. ƏFSANƏVİ SEVASTOPOL ..........................................117
Səkkizinci fəsil. MEŞƏ CIĞIRLARI İLƏ...............................................137
Doqquzuncu fəsil. İKİNCİ HƏMLƏ......................................................164
Onuncu fəsil. TƏKBƏTƏK DÖYÜŞ .......................................................184
On birinci fəsil. ADSIZ YÜKSƏKLİKDƏ.............................................207
On ikinci fəsil. QIRX İKİNCİ İLİN BAHARI .....................................219
On üçüncü fəsil. ORDU KOMANDANININ SÖZÜ..........................243
On dördüncü fəsil. MOSKVANIN ULDUZLARI ...............................256
On beşinci fəsil. VAŞİNQTON MİSSİYASI..........................................280
On altıncı fəsil. "MƏNİM ƏZİZİM" .....................................................304
On yeddinci fəsil. "YOLDAŞ STALİN BİZƏ ƏMR EDİB..."..............333
On səkkizinci fəsil. EHTİYAT YOLDAKI ZİREHLİ QATAR ..........347

## BİRİNCİ FƏSİL
# ZAVOD DİVARLARI

1932-ci ilin yayında ailəmizin həyatında əhəmiyyətli dəyişikliklər baş verdi. Biz Kiyev vilayətinin cənubunda yerləşən əyalət şəhəri Boquslavdan Ukraynanın paytaxtına köçdük və atam Mixail İvanoviç Belov üçün ayrılmış xidməti mənzildə məskunlaşdıq. Xalq Daxili İşlər Komissarlığının (XDİK) əməkdaşı olan atam vəzifəsini vicdanla yerinə yetirdiyinə görə mükafat olaraq bu idarənin mərkəzi aparatında vəzifəyə təyin olundu.

Atam ciddi, işinə sadiq insan idi. Gəncliyində böyük zavodda çilingər işləmiş, Birinci Dünya Müharibəsində olmuş, Kommunist partiyasının (həmin vaxtlar RSDFP(b) – Rusiya sosial-demokrat bolşevik fəhlə partiyası adlanırdı) sıralarına qoşulmuş, Petroqradda inqilabi hadisələrdə iştirak etmiş, sonralar 24-cü Samara-Simbirsk "Dəmir" diviziyasında alay komissarı kimi çalışmış, Orta Volqaboyunda və Uralda Kolçakın ağqvardiyaçı dəstələrinə qarşı vuruşmuşdu. 1923-cü ildə, 28 yaşında Qızıl Ordudan tərxis olunmuşdu. Ancaq hərbi formaya bağlılığını ömrünün sonuna qədər saxlamışdı və biz onu çox vaxt hərbi geyimdə görürdük: xaki rəngində, qatlama yaxalıqlı qabardin gödəkçə, sinəsində "Qırmızı Bayraq" ordeni, tünd-göy qalife şalvar və xrom zabit çəkmələri.

Ailədə hansısa mübahisə olsa, son qərarı həmişə, təbii ki, atam verirdi. Ancaq Vladimir şəhərində qızlar gimnaziyasını bitirmiş xoşqəlbli anam Yelena Trofimovna Belova atamın sərt xasiyyətini yumşalda bilirdi. O, qıvraq, qamətli, yaraşıqlı qadın idi, tünd-şabalıdı gur saçları və çöhrəsinə qeyri-adi nur verən qonur gözləri vardı.

Anam xarici dilləri yaxşı bilir və məktəbdə tədris edirdi. Şagirdləri onu sevirdilər. Anam dərsi oyuna çevirərək şagirdlər üçün qəribə səslənən bütün əcnəbi sözlərin asanlıqla yadda qalmasına nail olurdu. Şagirdlər təkcə mətni bacarıqla oxumur, həm də sərbəst danışırdılar.

O bizimlə – böyük bacım Valentina və mənimlə də inadla məşğul olurdu. Onun sayəsində biz rus klassik ədəbiyyatı ilə erkən tanış olduq, belə ki, ev kitabxanamızda Puşkin, Lermontov, Qoqol, Lev Tolstoy, Çexov, Maksim Qorki, Kuprinin əsərləri vardı. Yumşaq, xəyalpərəst xarakterli bacımın ədəbi obrazlara daha həssas olduğu ortaya çıxdı. Məni isə tarix, daha doğrusu, ölkəmizin hərbi keçmişi cəlb edirdi.

Biz Boquslavdan əvvəl bir neçə il Kiyev vilayətinin Belaya Serkov şəhərində yaşamışdıq. Orada 3 nömrəli məktəbdə oxumuş, qayğısız uşaqlıq və yeniyetməlik illəri keçirmişdim. Küçəmizdə mehriban dəstəmiz vardı. Birlikdə oyun oynayar, Ros çayında qayıq gəzintisinə çıxar, "Aleksandriya" parkında gəzişər, payızda ətrafdakı bağlara hücum edərdik. Mən yeniyetmələr dəstəsinin başçısı idim, çünki sapanddan hamıdan sərrast atırdım, hamıdan cəld qaçırdım, yaxşı üzürdüm və davadan heç vaxt çəkinmirdim.

On beş yaşım tamam olanda bu həyat əyləncələrinə son qoyuldu. Həm də onlar qəflətən, bir günün içində bitdi. Ge-

riyə baxanda bunu dünyanın sonu, könüllü korluq, ağlın itməsi ilə müqayisə edərdim. Söhbət ilk vurğunluqdan, məktəb sevgisindən gedir. O sevgidən mənə ömürlük xatirə kimi həmin adamın soyadı qalıb – PAVLİÇENKO.

Xoşbəxtlikdən, oğlum Rostislav qətiyyən atasına bənzəmir. Oğlumun bizim ailəmizin üzvləri üçün xarakterik olan mehriban, sakit xasiyyəti, qonur gözləri, gur qara saçları, uca boyu, möhkəm bədən quruluşu var. O, məhz Belovlar nəslinə bənzəyir və Vətənə xidmət ənənələrimizi qürurla davam etdirir. Slava fərqlənmə diplomu ilə Moskva universitetinin hüquq fakültəsini və Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) Ali məktəbini bitirib. O, şərəflə Sovet zabiti adını daşıyır və mən onunla fəxr edirəm.

Kiyevdə yeni evimizə, böyük və səs-küylü paytaxt şəhərinə tez öyrəşdik. Atamızı az-az görürdük, işdən gec qayıdırdı. Odur ki, onunla səmimi söhbətlərimiz adətən mətbəxdə şam yeməyindən sonra baş tuturdu. Anam masanın üstünə samovar qoyar, çay süfrəsi arxasında valideynlərlə istənilən mövzunu müzakirə edər, onlara istədiyimiz sualı verərdik. Tezliklə mühüm bir söhbətimiz oldu.

– Əziz uşaqlar, bundan sonra nə etməyə hazırlaşırsınız? – atam asta-asta qaynar çayını içərək soruşdu.

– Hələ bilmirik, – böyük bacım Valentina dilləndi.

– Siz iş barədə fikirləşməlisiniz, – atam dedi.

– Hansı iş? – bacım təəccübləndi.

– Yaxşı iş, yaxşı yer, yaxşı maaş barədə.

– Amma ata, – mən etiraz etdim, – mənim cəmisi 7 illik təhsilim var, hələ oxumağı davam etdirmək istəyirəm.

– Lyudmila, oxumaq heç vaxt gec deyil, – atam qətiyyətlə dilləndi. – Ancaq əmək fəaliyyətinə başlamağın əsl vaxtıdır. Artıq iş yerini danışmışam.

– Hara? – bacım dodaqlarını büzdü.

– "Arsenal" zavoduna...

"Askold məzarı" parkından hərəkət edəndə sol tərəfdə enli Dnepr çayı uzanır, sağda isə düz və elə də uzun olmayan Arsenal küçəsi başlayır. Küçənin başlanğıcında iri bina yerləşir. Bura hələ Birinci Nikolayın vaxtında tikilmiş Arsenal emalatxanalarıdır. Deyilənə görə, onun özülünə ilk kərpici imperator özü qoyub. Divarlar iki metr qalınlığında və iki mərtəbə hündürlüyündədir, kərpicin rənginə görə bina açıq-sarı rəngdədir, bu səbəbdən də yerli əhali tikilini "çini" adlandırır.

Ancaq emalatxanaların da, ona bitişik zavodun da zərif gil məmulatlarına heç bir aidiyyəti yoxdur. Zavodun tikintisinə Böyük Yekaterinanın əmri ilə başlanılıb və tikinti işləri uzun müddət – 1784-cü ildən 1803-cü ilə qədər davam edib. Zavodda toplar, top qundaqları, tüfəng, süngü, qılınc, müxtəlif hərbi ləvazimat hazırlanıb.

Bu iri hərbi müəssisə Sovet dövründə həm də xalq təsərrüfatı üçün vacib olan məhsullar – kotan, qıfıl, ikiatlı araba, dəyirmanlar və şəkər zavodları üçün avadanlıq istehsal etməyə başlayır. "Arsenal"ın fəhlələri var gücləri ilə işləyərək 1923-cü ildə Ukrayna hökumətinin mükafatına – "Qırmızı Əmək bayrağı" ordeninə layiq görülürlər.

Zavod binasını ilk baxışdan bəyəndim. O, qalaya bənzəyirdi. Düzbucaqlı formasında, böyük daxili həyəti, qülləli, dəyirmi xarici divarları olan tikili sanki qədim döyüş qravü-

rasını xatırladırdı. Yalnız divarların altında xəndəklər, asma körpü və parlaq zireh geyinmiş əsgərlərin qoruduğu ağır qapılar çatışmırdı.

Bacımla mən bəzi formallıqlar (məsələn, dövlət sirrini açıqlamamaq barədə müqavilə) yerinə yetirildikdən sonra bu “qala”nın qarnizonuna qatıldıq. Valentinanı 18 yaşı bitdiyinə və orta təhsil haqda attestatı olduğuna görə normallaşdırma mütəxəssisi, məni isə azyaşlı olduğumu (16 yaşım vardı) və hər hansı peşə vərdişimin yoxluğunu nəzərə alaraq adi fəhlə təyin etdilər.

Zavod həyatının ritminə daxil olmaq və fəhlələrlə dostlaşmaq üçün mənə yarım il bəs etdi. Komsomola qəbul olundum. 1934-cü ilin mayında torna sexinə keçdim, orada bir aya yaxın şagird oldum, sonra isə müstəqil çalışmaq hüququ alaraq tezliklə altıncı kateqoriyalı tornaçı ixtisasına yiyələndim.

Maraqlı dövr idi. “Arsenal” gözlərimizin önündə dəyişirdi. Yeni dəzgahlar gətirilir, daha mükəmməl avadanlıqlar quraşdırılır, yeni istehsal gücləri istifadəyə verilir, köhnə binalar yenidən qurulurdu. Hökumətin istehsalın artımına yönəlmiş səylərini görən zavod işçiləri buna zərbəçi əməklə cavab verirdi. Yeri gəlmişkən, əməyin qiymətləndirilməsi də nəzərəçarpacaq dərəcədə yüksəlirdi, seximizin bütün işçiləri isə işəmuzd ödəmə ilə işləyirdi.

Mənim də narazı olmağa səbəbim yoxdu. Moskvadakı “Qırmızı proletari” zavodunun 1933-cü il istehsalı olan torna-vintkəsən dəzgahda çalışırdım. O, silindrik, konik və mürəkkəb səthlərin emalı üçün nəzərdə tutulmuşdu.

İndiki kimi xatırlayıram, işin əsas hissəsi hər cür reduktorlar üçün vallar hazırlamaqdan ibarətdi. Kəski hər dəfəyə 0,5-3 millimetr (və daha çox) metal kəsirdi. Kəsmə sürəti materialın sərtliyindən və kəskinin möhkəmliyindən asılı olaraq seçilirdi. Bizdə adətən yüksək karbonlu poladdan hazırlanmış kəskilərdən istifadə olunurdu. Başqaları – volfram və titanın çox möhkəm ərintilərindən hazırlanmış lehimli lövhələri olan kəskilər də vardı.

Kəskidən qıvrılıb çıxan mavi-bənövşəyi metal yonqarını bu gün də qeyri-adi dərəcədə gözəl sayıram. Metal nə qədər möhkəm olsa da, insanın qüvvəsinə tabe olur. Sadəcə bu cür bacarıqlı maşın icad etmək lazımdır...

İnsanları əmək vasitəsilə birləşdirən zavod onlara asudə vaxtlarını səmərəli keçirmək imkanı da yaradırdı. Düzdür, zavodun klubu parlaq və zəngin tərtibatı ilə seçilmirdi. O, geniş deyildi, hətta darısqal idi. Ancaq onun otaqları müxtəlif dərnəklərin məşğələləri üçün bəs edirdi. Burada "Mavi kofta" teatr dərnəyi, rəssamlıq, qadınlar üçün çox faydalı biçmə və tikiş, planer və atıcılıq dərnəkləri vardı. Akt zalında "Üç nəslin görüşü" adlı bayram axşamları keçirilirdi, inqilabın və Vətəndaş müharibəsinin iştirakçıları, normanı artıqlaması ilə yerinə yetirmiş istehsalçılar alqışlanırdı.

Rəfiqəm məni inandırdı və birlikdə planer dərnəyinə getdik. Qəzetlər aviasiyadan və təyyarəçilərin igidliyindən çox yazırdı. Biz nəzəri məşğələlərdə ruh yüksəkliyi ilə iştirak edir və Hərbi Hava Qüvvələrinin gənc leytenantının qanadların qaldırıcı gücü barədə mühazirələrini diqqətlə konspektləşdirirdik. Ancaq təlimatçı ilə ilk uçuş mənim həvəsimi söndürdü. Mənim başım hərləndi və ürəyim bulandı. "Hava

mənlik deyil, – fikirləşdim. – Mən yer adamıyam və ayağımın altında torpağı hiss etməliyəm”.

Atıcılıq dərnəyinin təlimatçısı Fyodor Kuşenko bizim sexdə işləyirdi və gənclərə bu sahəni təbliğ edirdi. O, Qızıl Orduda hərbi xidmətdən bu yaxınlarda qayıtmışdı, orada atıcılıqla maraqlanmışdı, bizi inandırmağa çalışırdı ki, güllənin uçuşunda və hədəfə dəyməsində valehedici bir şey var. Suyuşirin və cazibədar Fedya atıcılığı mənə də təbliğ edirdi. Ancaq mən planerdə uçuşun öz imkanlarıma olan inamımı necə sarsıtdığını yaxşı xatırlayırdım, halbuki gənclik dövründə bu imkanlar sərhədsiz görünür. Üstəlik, Kuşenkonun tovlayıcı nitqlərinə elə də inanmırdım. Mənim elə də böyük olmayan, ancaq sərt həyat təcrübəm söyləyirdi: kişilərlə ehtiyatlı olmaq lazımdır.

Bir dəfə (komsomol yığıncağı zamanı) Fedyanın nağıllarını dinləməkdən bezdim və ona ironik tərzdə cavab verdim. Ətrafımda əyləşənlər mənim zarafatımı qiymətləndirdilər və ucadan gülməyə başladılar. Həmin vaxt komsomol katibimiz sexin kvartal planının vaxtından əvvəl yerinə yetirilməsi sahəsində komsomolçuların işinə dair darıxdırıcı məruzə edirdi. O, gülüşmənin özü ilə əlaqədar olduğunu zənn edib bərk əsəbiləşdi. Onunla zalda əyləşən bəzi komsomolçular arasında söz deyişməsi baş verdi. Tərəflər ibarəli epitetlər və gözlənilməz müqayisələrdən istifadə etdilər. Sonunda komsomol katibi məni və Kuşenkonu qalmaqalın səbəbkarları kimi yığıncaqdan qovdu.

Bu cür sonluqdan çaşan mən və Fyodor qapıya doğru addımladıq. İş günü artıq bitmişdi, addımlarımız boş dəhlizdə əks-səda verirdi. Qəfildən Kuşenko dedi:

– Sakitləşmək lazımdır.

– Lazımdır, – mən razılaşdım.

– Elə isə tirə gedib güllə ataq?

– Səncə, bu kömək edər?

– Əlbəttə. Atıcılıq sakit adamların məşğuliyyətidir. Düzdür, anadangəlmə qabiliyyət də lazımdır.

– Hansı qabiliyyət? – istehzalı sualdan özümü saxlaya bilmədim.

– Əsl qabiliyyət. Məsələn, iti göz, yaxud silahı dəqiq hiss etmək, – dəri gödəkçəsinin cibindən çıxardığı açar dəstəsini cingildədək cavab verdi.

Tir zavodun əsas binasının yanındakı ərazidə idi. Yəqin ki, nə vaxtsa bura anbar olmuşdu –pəncərələrində barmaqlıqlar olan alçaq, uzun tikili idi. 1930-cu illərin ortalarında "Arsenal"ın tiri bütün zəruri standartlara cavab verirdi. Orada masalar, stullar və divarda nəzəri məşğələlər üçün şagird lövhəsi olan otaq, tüfəng və tapançaların saxlandığı şkafı olan silah otağı, döyüş sursatının saxlandığı seyf, yaxından, ayaq üstə, uzanıb atmağa imkan yaradan atəş zonası vardı. Hədəflərin olduğu qalın taxta lövhələr atəş zonasından iyirmi beş metr aralıda idi.

Fyodor şkaflardan birini açıb təzə, elə də böyük olmayan (dəqiq desək, uzunluğu 111 santimetr), qalın lüləli tüfəng götürdü. Tula silah zavodunun istehsalı olan bu tüfəng SSRİ-də "TOZ-8" adı ilə tanınırdı. O, 1932-ci ildən 1946-cı ilə qədər və modifikasiyaları ilə birlikdə təqribən 1 milyon ədəd istehsal olunmuşdu. Etibarlı, istifadədə sadə olan kiçik kalibrli tüfəng təkcə idmançıların yox, həm də ovçuların karına gəlirdi.

Onun barəsində xoş hisslərlə yazıram, çünki atıcılıqla məşğul olmağım, sərrast atıcılıq universitetlərim məhz "TOZ-8"dən başlayıb...

Odlu silahla necə davranmaq haqda danışılan ətraflı təlimatlar mövcuddur. Əlbəttə, Kuşenko ilk olaraq onlardan danışa bilərdi. Ancaq o, başqa cür hərəkət etdi. Tüfəngi sadəcə mənə uzatdı və dedi:

– Tanış ol!

Düzünü desəm, odlu silahın ağır olduğunu və əldə saxlamağın çətinliyini düşünürdüm. Ancaq bu tüfəngin çəkisi heç üç kilo yarım da olmazdı. Dəzgahda emal etmək üçün yetərincə ağır detallarla işləməyə öyrəşmiş mənə silahı qaldırmaq üçün heç bir səy gərək olmadı. Metalın soyuq sərtliyi də xoş təsir oyadırdı.

Fyodor ilk olaraq "silahın ələ yatımlılığını", mənə uyğun gəlib-gəlmədiyini yoxlamağı təklif etdi. Bu məsələdə hər şey uğurlu idi. Tüfəngin qundağının arxası çiyin çuxuruma dirəndi, sağ əlimin biləyi ilə qundağın boynundan tutdum və şəhadət barmağımı – mənim barmaqlarım uzundur – tətiyə dirədim. Yalnız başımı sağa əyib yanağımı qundaq darağına söykəmək və açıq sağ gözümlə nişan almaq qalırdı.

– Artıq atəş aça bilərsən, – Fyodor dedi.

– Bəs güllə?

– Bircə dəqiqə, – təlimatçı tüfəngi məndən aldı, doldurdu və lüləsini hədəfə doğru yönəltdi.

Bərkdən səs çıxdı, sanki dəmir təbəqəni çubuqla cızırlar. Təəccübdən diksindim. Kuşenko gülümsədi:

– Bu, vərdişin yoxluğundandır. Yoxla, səndə alınacaq...

Yenidən tüfəngi əlimə götürdüm. Bütün qaydalara riayət edib ilk atəşimi açdım. Fyodorun məsləhətilə tüfəngi çiynimə bərk sıxmışdım, odur ki, heç bir xoşagəlməz hiss olmadı. Kuşenko mənə daha üç dəfə atəş etmək imkanı verdi, sonra isə hədəfə baxmağa yollandı. O, qara dairələr çəkilmiş kağız vərəqi gətirdi, onu həyəcanla gözləyirdim, diqqətlə vərəqə baxdı və dilləndi:

– Başlanğıc üçün çox yaxşıdır. Görünür, sənin qabiliyyətin var.

– Anadangəlmə? – nədənsə zarafat etmək istədim.

– Bəli, – mənim ilk məşqçim ciddi şəkildə dedi.

Heç vaxt Fedya Kuşenkonu bu qədər ciddi görməmişdim.

Bizim atıcılıq dərnəyində məşğələlər həftədə bir dəfə, şənbə günü olurdu. Əvvəlcə kiçik kalibrli tüfəngin quruluşunu, onu sökүb-yığmağı, silaha qulluq qaydalarını öyrəndik. Qara sinif lövhəsi olan otaqda məşğələlər keçirilir, bizə ballistikanın əsaslarından danışırdılar. Mən təəccüblə öyrəndim ki, güllə hədəfə doğru düz xətlə yox, hərəkətin ətalətindən, ağırlıq qüvvəsinin və havanın müqavimətinin təsiri ilə qövs cızaraq uçur, üstəlik həm də fırlanır.

Odlu silahın tarixinə dair mühazirələr də olurdu. Bu tarix XIV əsrdən, barıtın metal xüsusiyyətləri öyrənilən vaxtdan başlayırdı. Ancaq əsl inqilabi çevriliş XIX əsrin sonlarında baş verdi, silahı tez doldurmaq imkanı yarandı, atəşin məsafəsi və sərrastlığı artdı.

Ümumiyyətlə, odlu silah mənim üçün insan ağlının və əllərinin mükəmməl yaradıcılığıdır. Onun yaradılmasında həmişə ən son ixtiralardan istifadə olunub. Onun hazırlan-